# GƏNCLƏR SİYASƏTİ

29 yanvar 2016-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan gənclərinin bir qrupu ilə görüş keçirmişdir.

Azərbaycan Gənclər günü ilə əlaqədar 2 fevral 2016-cı il tarixdə elm, təhsil, mədəniyyət, ədəbiyyat və ictimai fəaliyyət sahələrində fərqlənmiş 6 nəfər gəncə "Gənclər üçün Prezident Mükafatı" təqdim edilmişdir.

Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 fevral 2016-cı il tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Gənclər və İdman Nazirliyi tərəfindən keçiriləcək tədbirlərin planı hazırlanmışdır.

Sərəncama müvafiq olaraq Gəncə-Avropa Gənclər Paytaxtı çərçivəsində nazirliyin dəstəyi ilə 5 yerli və 8 beynəlxalq tədbir keçirilmişdir.

2016-cı il ərzində 150 tədbir keçirilib, onlardan 120-si yerli, 30-u isə beynəlxalq səviyyəli olmuşdur. 228 nəfər xarici ölkələrə ezam olunmuş, 790 nəfər isə Azərbaycan Respublikasında qəbul edilmişdir.

## *Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi*

15 yanvar 2016-cı il tarixdə Milli Olimpiya Komitəsində "20 Yanvar hadisələrinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda toplantı keçirilmişdir.

01 fevral 2016-cı il tarixdə "2 fevral-Azərbaycan Gəncləri Günü" münasibəti ilə Daxili İşlər Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabit heyəti ilə görüş keçirilmişdir. Görüş zamanı xidmətdə fərqlənmiş hərbçilər nazirliyin "Fəxri Fərman"ları ilə təltif olunmuş, hərbi hissəyə idman ləvazimatları və hədiyyələr təqdim edilmişdir.

15-16 mart 2016-cı il tarixlərdə Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Hünər" X Vətənpərvərlik mahnıları festivalı keçirilmişdir.

18 mart 2016-cı il tarixdə "Novruz bayramı" münasibəti ilə Tərtər rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabit heyəti ilə görüş keçirilmişdir.

Gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədilə 2016-cı il aprel ayının 14-də Neftçala və Cəlilabad rayonlarında, aprelin 28-də isə İmişli və Beyləqan rayonlarında mədəni-kütləvi və təbliğat xarakterli tədbirlər keçirilmişdir. Tədbirlər zamanı gənclər qarşısında əlaqədar dövlət orqanlarının nümayəndələri çıxışlar etmiş, incəsənət ustalarının iştirakı ilə konsert proqramları təşkil edilmiş və onlara nazirlik tərəfindən hazırlanmış tövsiyə-yaddaş kitabçaları paylanmışdır.

28 aprel 2016-cı il tarixdə Göygöl rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabit heyəti ilə görüş keçirilmişdir.

09-10 may 2016-cı il tarixlərdə "Şahin" hərbi-idman oyununun respublika final yarışı keçirilmişdir. Qaliblər Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılmışdır.

07 iyun 2016-cı il tarixdə "Multikultural dəyərlər və tolerantlıq Azərbaycanın ən qiymətli sərvətləridir" mövzusunda konfrans keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında təbliğ edilməsi məqsədi ilə 2016-cı il iyun ayının 15-də Şəmkir rayonunda "Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans və "Azərbaycançılıq məfkurəsi və gənclik" adlı mədəni-kütləvi tədbir, sentyabrın 20-də Abşeron rayonunda, oktyabrın 31-də Siyəzən və Şabran rayonlarında "Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfranslar keçirilmişdir.

16 iyun 2016-cı il tarixdə Şəmkir rayonunda "Gənclər və milli-mənəvi dəyərlərimiz: keçmişdən bu günə" mövzusunda zona toplantısı keçirilmişdir.

Gənclər arasında milli-mənəvi dəyərlərin təbliğ edilməsi və dini radikalizmə qarşı mübarizə məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Dini

Qurumlarla iş üzrə Dövlət Komitəsinin 2016-cı il üçün birgə Tədbirlər Planına əsasən 05 iyul tarixində Şəki şəhərində “Multikultural cəmiyyətdə dini ekstremizmlə mübarizədə gənclərin rolu” mövzusunda konfrans, 02 sentyabr Quba rayonunda “Azərbaycanın multikultural mühiti və ona qarşı təhdidlər” mövzusunda toplantı, 08 sentyabr Mingəçevir şəhərində “Tolerantlığın Azərbaycan modeli” mövzusunda konfrans, 09 sentyabr Tərtər rayonunda “Dini ekstremizm və onun fəsadları” mövzusunda toplantı, 30 sentyabr Şamaxı rayonunda “Azərbaycanda ənənəvi İslam və xarici təsirlər” mövzunda zona toplantısı, 07 oktyabr Sumqayıt şəhərində “Azərbaycanda qeyri-ənənəvi və radikal dini cərəyanlar: təzahür formaları və fəaliyyət üsulları” mövzusunda konfrans, 11 oktyabr Lənkəran şəhərində “Azərbaycanda ənənəvi İslam dəyərləri: tarixlik və varislik” mövzusunda toplantı, 09 dekabr Bakı Slavyan Universitetində “Milli-mənəvi dəyərlərimiz və müasirlik” mövzusunda seminar, 13 dekabr Azərbaycan Dillər Universitetində “Milli-mənəvi dəyərlərimiz və müasirlik” mövzusunda seminar və 16 dekabr 2016-cı il tarixlərdə “Multikulturalizm ili: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilmişdir.

05 avqust-08 sentyabr 2016-cı il tarixlərdə Lənkəran şəhərində və Quba rayonunda “Azərbaycan doğma diyarımdır” adlı vətənpərvərlik yay-istirahət düşərgəsi keçirilmişdir. Düşərgədə 500 nəfərə yaxın gənc iştirak etmişdir.

14 oktyabr 2016-cı il tarixdə “Dövlət müstəqilliyi günü” münasibəti ilə Qusar rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edən əsgər və zabit heyəti ilə görüş keçirilmişdir. Görüş zamanı xidmətdə fərqlənmiş hərbçilər Nazirliyin "Fəxri Fərman"ları ilə təltif olunmuş, hərbi hissəyə idman ləvazimatları və hədiyyələr təqdim edilmişdir.

19 oktyabr 2016-cı il tarixdə Gəncə şəhərində “Gənclik və dövlət müstəqilliyi” mövzusunda konfrans keçirilmişdir.

Çağırışyaşlı gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə 25-28 oktyabr 2016-cı il tarixlərdə Sumqayıt şəhərində, Sabunçu, Nərimanov və Yasamal rayonlarında təbliğat xarakterli mədəni-kütləvi tədbirlər keçirilmişdir və onlara nazirlik tərəfindən hazırlanmış tövsiyə-yaddaş kitabçaları paylanmışdır.

02 noyabr 2016-cı il tarixdə “Mən Azərbaycanlıyam” adlı milli bilik yarışmasının 6-cı mövsümünün qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

07 noyabr 2016-cı il tarixdə “9 noyabr-Dövlət Bayrağı günü” münasibəti ilə Gəncə şəhərində “III Bayraq Festivalı” keçirilmişdir.

28 dekabr 2016-cı il tarixdə “Dünya Azərbaycanlılarının Həmrəylik günü” münasibəti ilə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində “Vətənə xidmət edirəm” adlı mədəni-kütləvi tədbir keçirilmişdir.

### *Yaradıcı gənclərlə iş və asudə vaxtın təşkili*

02 fevral 2016-cı il tarixdə Azərbaycan gəncləri günü münasibətilə gənc rəssamların əsərlərindən ibarət sərgi, istedadlı və yaradıcı gənclərin mükafatlandırma mərasimi keçirilmişdir. 18 nəfər istedadlı və yaradıcı gənc mükafata layiq görülmüşdür.

20-23 fevral 2016-cı il tarixlərdə Birinci MilliMUN BMT Modeli konfransı keçirilmişdir. Həmçinin 09-10 apreldə Bakı Dövlət, 23-24 apreldə Qafqaz, 20-22 mayda İqtisad və 27-29 may 2016-cı il tarixlərdə ADA Universitetləri tərəfindən BMT Modeli konfransları keçirilmişdir.

21 fevral 2016-cı il tarixdə Müasir və İctimai rəqs növləri üzrə Bakı Çempionatı keçirilmişdir.

2016-cı ilin mart-aprel aylarında "Xəmsə" Milli İntellektual oyunu üzrə VIII Azərbaycan Çempionatı keçirilmişdir. Çempionatda respublikanın bütün şəhər və rayonlarından ümumilikdə 4000-dən çox gənc iştirak etmişdir.

18-22 aprel 2016-cı il tarixlərdə "İslam dünyasının gənc (20 yaşadək) klassik musiqi ifaçılarının 5-ci Beynəlxalq müsabiqəsi" layihəsi həyata keçirilmişdir. Layihəyə 10 ölkədən 63 iştirakçı qatılmışdır.

20-24 aprel 2016-cı il tarixlərdə "Azərbaycan doğma diyarımdır" gənc fotoqrafların işlərindən ibarət fotosərgi keçirilmişdir.

25-27 aprel 2016-cı il tarixlərdə Bakı şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumun ilk günündə "İnklyüziv cəmiyyətlərdə birgə yaşayş: çətinlik və məqsəd" devizi altında gənclər tədbiri təşkil edilmişdir. Forum çərçivəsində "Mədəniyyətlərarası dialoq gənclərin gözü ilə" beynəlxalq fotomüsabiqəsinin yekunlarına həsr olunmuş fotosərgi və mədəni-kütləvi tədbir keçirilmişdir. Fotomüsabiqədə iştirak etmək üçün 97 ölkədən 858 nəfər şəxs müraciət etmişdir. Müsabiqəyə təqdim edilmiş fotolardan seçilmiş 100 ədədi Qlobal Forum çərçivəsində sərgi şəklində nümayiş olunmuşdur.

27-30 may 2016-cı il tarixlərdə "Znatokiada-2016" intellektual oyunlar üzrə beynəlxalq turnir keçirilmişdir. Turnirdə 12 ölkədən olan 51 komanda yarışmışdır.

05 iyun 2016-cı il tarixdə İDEA İctimai Birliyi ilə birgə 5 iyun - Ümumdünya ətraf mühitin mühafizəsi günü münasibətilə Buzovnada sahilyanı ərazilərin təmizlənməsi aksiyası keçirilmişdir.

"Gənc Alimlərin Əsərləri" adlı jurnalın 12-ci sayı çap edilmişdir.

07-10 iyul 2016-cı il tarixlərdə "Azərbaycanda Belarus gəncləri günləri" keçirilmişdir.

10-19 avqust 2016-cı il tarixlərdə Daşkəsən Gənclərin Təlim və İstirahət Mərkəzində "Yaradıcılıq emalatxanası" düşərgəsi keçirilmişdir. Düşərgədə 110 nəfər gənc iştirak etmişdir.

24-27 avqust 2016-cı il tarixlərdə "Breyn-rinq" intellektual oyunu üzrə "Azərbaycan Respublikası Prezidentinin Kuboku uğrunda Beynəlxalq turnir" televiziya layihəsi həyata keçirilmişdir. Layihədə 11 ölkədən 72 nəfər iştirak etmişdir.

14 oktyabr 2016-cı il tarixdə VIII Beynəlxalq Uşaq Muğam Festivalı keçirilmişdir. Festivala 8 ölkədən 65 iştirakçı qatılmışdır.

20-25 oktyabr 2016-cı il tarixlərdə Bakı Caz Festivalı çərçivəsində gənclər arasında "I am jazzman" musiqi müsabiqəsi keçirilmişdir. Müsabiqədə 40-dək gənc iştirak etmişdir.

2016-cı ilin oktyabr ayından macəra janrında olan "Sonuncu dalan" kompyuter oyununun II mərhələsinə və "İşğal altında" kompyuter oyununun yenilənməsi ilə bağlı layihəyə start verilmişdir.

01-03 noyabr 2016-cı il tarixlərdə Bakı şəhərində "Azərbaycanda İslam dünyası və multikulturalizm dəyərləri" mövzusunda gənc fotoqrafların sərgisi keçirilmişdir.

İstedadlı gənclərin üzə çıxarılması məqsədi ilə aprel ayında "İstedadların hazırlığı laboratoriyası" IV Respublika olimpiadasının on-line mərhələləri keçirilmiş, ölkə üzrə 2500 nəfərdən artıq yeniyetmə texniki fənlər üzrə olimpiadada iştirak etmiş, 95 nəfər final mərhələsində iştirak hüququ qazanmışdır. 08-10 dekabr 2016-cı il tarixlərdə IV Respublika olimpiadasının final və mükafatlandırma mərasimi keçirilmiş, 26 nəfər şagird qalib olmuş, medal, diplom və qiymətli hədiyyələr qazanmışdır.

18 dekabr 2016-cı il tarixdə Azərbaycan ŞHK Liqasının final mərhələsi keçirilmişdir.

20 dekabr 2016-cı il tarixlərdə "İslam tarixi və mədəniyyəti" mövzusunda İntellektual turnir keçirilmişdir. Turnirdə 150 nəfər yeniyetmə iştirak etmişdir.

Dünya Robot Olimpiadası ilə bağlı orta və ali təhsil müəssisələrində təqdimatlar keçirilmişdir. Təqdimatlarda 1000-ə yaxın yeniyetmə və gənc iştirak etmişdir.

### *Sağlam həyat tərzinin təbliği və sosial proqramlar*

15 mart 2016-cı il tarixdə sosial müdafiəyə ehtiyacı olan 300 nəfər yeniyetmə və gənc üçün Novruz şənliyi keçirilmişdir.

01-12 aprel 2016-cı il tarixlərdə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetində insan alveri ilə mübarizəyə həsr olunmuş "Günahsız günahkarlar" adlı teatr tamaşasının nümayişi təşkil edilmişdir.

05-15 aprel 2016-cı il tarixlərdə Bakı şəhərində “Gənclər evləri”ndə psixososial xidmət fəaliyyətinin dəstəklənməsi məqsədilə 30 nəfərin iştirakı ilə gənc mütəxəssislər üçün təlim kursu keçirilmişdir.

17 aprel 2016-cı il tarixdə - Ümumdünya fiziki aktivlik gününə həsr edilmiş Suraxanı rayonunda “Gənclərin Sağlamlıq Festivalı” keçirilmişdir.

“Dövlət Qulluğu haqqında” və “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə alaraq, dövlət qulluqçularının xidməti fəaliyyətinin təkmilləşdirilməsi, onların peşəkarlığının artırılması məqsədilə 21 aprel 2016-cı il tarixdə Şəmkir rayonunda Gəncə, Yevlax, Mingəçevir, Şəmkir, Gədəbəy, Tovuz, Samux, Qazax, Ağstafa, Daşkəsən və Bərdə rayon (şəhər) gənclər və idman idarələrinin (baş idarələrinin) rəhbərləri üçün “İnsan resusrslarının idarəedilməsi, dövlət qulluqçusundan tələb olunan bacarıqlar” mövzusunda zona seminar müşavirəsi keçirilmişdir.

28-29 aprel 2016-cı il tarixlərdə Şuşa və Zəngilan, 02-06 may tarixlərdə Oğuz, Şəki, Zaqatala, Qax, Balakən rayonlarında narkomaniya ilə mübarizəyə həsr olunmuş “Həyatla oyun” adlı maarifləndirici teatr tamaşası nümayiş etdirilmişdir.

24 may 2016-cı il tarixdə Fairmont otelində 28 may - Respublika gününə həsr edilmiş “Qarabağ gənclərin təqdimatında” adlı tədbir keçirilmişdir.

“Gənclər evləri”nin fəaliyyətinin şəffaflığını artırmaq, şəbəkənin işini əlaqələndirmək və tənzimləmək üçün www.genclerevi.az, gənclər siyasətinin və gənclərin inkişafının bütün istiqamətlərini əhatə edən www.youthportal.az saytının fəaliyyətinə dəstək göstərilmişdir.

Cari ilin may-iyun ayları ərzində Bakı şəhərinin Binəqədi, Suraxanı, Sabunçu, Xəzər və Qaradağ rayonlarında fəaliyyət göstərən “Gənclər evi” sosial xidmət müəssisələrində “İstehsalat təcrübəsi, şagirdlik və könüllülük” kimi iş təcrübələrinin geniş tətbiqini təbliğ etmək məqsədilə maarifləndirmə tədbirləri və seminar keçirilmişdir. Təlimlərdə 125 nəfər iştirak etmişdir.

10 iyun 2016-ci il tarixdə Astara, Lənkəran, Lerik, Masallı və Yardımlı rayon (şəhər) gənclər və idman idarələrinin (baş idarələrin) əməkdaşları üçün “Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları” mövzusunda seminar keçirilmişdir.

13-17 iyun və 20-24 iyun 2016-cı il tarixlərdə gənclər təşkilatlarının və tələbə gənclər təşkilatlarının nümayəndələri üçün Bakı şəhərində “İnsan hüquq və azadlıqlarının əsasları” mövzusunda təlim kursları keçirilmişdir.

23 iyun 2016-cı il tarixdə “Narkomaniya ilə mübarizədə gənclər təşkilatlarının rolu” mövzusunda konfrans keçirilmişdir.

28 iyun - 02 iyul 2016-cı il tarixlərdə Gəncə şəhərində “Yaşıl iqtisadiyyatın inkişafında gənclərin rolu və perspektivləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Gənclər və İdman Nazirliyi, MDB üzv ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və “Dan” Beynəlmiləlçi Gənclər İctimai Birliyinin birgə təşkilatçılığı ilə 20-24 sentyabr 2016-cı il tarixlərdə Bakı şəhərində Əlilliyi olan gənclərin “Şərq nağılı” adlı Beynəlxalq Yaradıcılıq Festivalı keçirilmişdir. Festivalda 7 (Azərbaycan, Rusiya, Belarus, Ukrayna, Gürcüstan, Moldova, Litva) ölkədən 110 nəfərə yaxın gənc iştirak etmişdir.

28 sentyabr 2016-cı il tarixdə Qobustan, Şamaxı, 30 sentyabr tarixdə Şirvan və Hacıqabul rayonlarında “Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!” devizi altında maarifləndirici tədbirlər keçirilmişdir.

2016-cı ilin 20-21 oktyabr tarixlərində Kürdəmir və Zərdab, 24-28 oktyabr tarixlərdə Goranboy, Samux, Naftalan, Göygöl, Göyçay rayonlarında “Həyatla oyun”, 01-07 noyabr tarixlərdə Nərimanov, Xəzər, Binəqədi, Qaradağ, Səbail rayonlarında “Günahsız günahkarlar” adlı maarifləndirici teatr tamaşaları nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli, 1993 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Gənclər və İdman Nazirliyinin 2016-cı il üzrə iş planına əsasən oktyabr-noyabr aylarında Gəncə, Yevlax, Mingəçevir, Şirvan və Şəki şəhərlərində “Dövlət qulluğunda törədilməmiş cinayətin və qanunsuz hərəkətlərin

qarşısının alınması sahəsində antikorrupsiya, şəffaflıq və etik davranış prinsiplərinin rolu" mövzusunda zona seminar müşavirələri keçirilmişdir.

07 noyabr tarixdə Gəncə şəhərində "Gənclərin Sağlamlıq Festivalı - 2016" layihəsi həyata keçirilmişdir.

15-19 noyabr 2016-cı il tarixlərdə Bakı şəhərində gənclər təşkilatlarının nümayəndələri üçün "Uşaq hüquqlarının effektiv təbliğ olunması" mövzusunda təlim kursu keçirilmişdir.

21-24 noyabr 2016-cı il tarixlərdə Bakı şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) Gənclərlə iş üzrə Şurasının iclası keçirilmişdir.

22-25 noyabr 2016-cı il tarixlərdə Bakı şəhərində "Gənclərin inkişafında qeyri-formal təhsilin rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

28 noyabr tarixdə "Olimpiya dəyərləri gənclərin təqdimatında" adlı sərgi və konfrans keçirilmişdir.

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "1 dekabr Ümumdünya QİÇS-lə mübarizə günü" ilə əlaqədar "Gələcəyə Doğru Gənclərin İnkişafı" İctimai Birliyinin "Gənclər arasında QİÇS-in profilaktikası məqsədilə mübarizənin gücləndirilməsi" layihəsi həyata keçirilmişdir.

23 dekabr tarixdə Sosial müdafiəyə ehtiyacı olan yeniyetmə və gənclər üçün "Yeni il" şənliyi keçirilmişdir.

26 dekabr tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə əlaqədar "İdman dayanıqlı inkişaf naminə" festival-müsabiqə keçirilmişdir.

26-29 dekabr 2016-cı il tarixlərdə Bakı şəhərində "İnsan hüquqları və gender bərabərliyi" mövzusunda təlim kursu və "forum-teatr" formatında tədbir keçirilmişdir.

### *Gənclər təşkilatları ilə iş*

01 fevral 2016-cı il tarixdə Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın "2 fevral - Azərbaycan gəncləri günü"-nə həsr olunmuş iclası keçirilmişdir. İclasda 10 gənclər təşkilatı, 5 tələbə gənclər təşkilatı və 2 ictimai fəal gənc Gənclər və İdman Nazirliyinin diplomları ilə təltif olunmuşlar.

19-27 mart 2016-cı il tarixlərdə "Avropa Tələbələr Forumu-Bakı" İctimai Birliyi ilə birgə "Novruz" Beynəlxalq Gənclər Festivalı keçirilmişdir. Festivalın proqramı çərçivəsində xarici iştirakçılar Bakı şəhərində bayram tədbirlərinə qoşulmuş, tarixi yerlərə səfərlər etmiş, ailələrdə Novruz axşamını qarşılamışlar. Yerli adət-ənənələr, tolerantlıq, dözümlülük və mədəniyyətlərarası dialoq üzrə təlimlər təşkil edilmişdir. Festivalda 20-dək ölkədən 30 gənc iştirak etmişdir.

30 mart-01 aprel 2016-cı il tarixlərdə Bakı şəhərində 200 gəncin iştirakı ilə "Soyqırımlara son" adlı beynəlxalq konfrans keçirilmişdir. Konfransda Türkiyə, Özbəkistan, İsrail, İran, Gürcüstan, Moldovadan və Azərbaycandan 14 ekspert iştirak etmişdir.

06-11 aprel 2016-cı il tarixlərdə Bakı şəhərində "Gənclər və idman idarələrinin fəaliyyətinin təkmilləşdirilməsi" mövzusunda seminar keçirilmişdir. Seminarda Gənclər və İdman Nazirliyinin, müxtəlif dövlət orqanlarının nümayəndələri və bütün rayon(şəhər) gənclər və idman idarələrinin rəisləri iştirak etmişdir.

03-04 may 2016-cı il tarixlərdə "Gəncə- Avropanın gənclər paytaxtı"nın açılış mərasimi keçirilmişdir. "Gəncə Avropa Gənclər Paytaxtı 2016" İctimai Birliyinin ofisinin və Gənclər evinin açılışı olmuş, açıq havada konsert proqramı təşkil edilmişdir. Açılış tədbirlərində Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, mərkəzi idarətmə orqanlarının rəhbərləri, Avropa ölkələrinin Bakıdakı səfirliklərinin, Avropa Gənclər Forumunun, Avropa Gənclər Paytaxtları Şəbəkəsinin, müxtəlif beynəlxalq təşkilatların nümayəndələri, yerli gənclər təşkilatlarının rəhbərləri iştirak etmişlər. Tədbirlər Euronews televiziya kanalı ilə nümayiş etdirilmişdir.

26 may 2016-cı il tarixdə Bakı şəhərində “Türkiyə Universitetləri Məzunları” İctimai Birliyinin “Türkiyə universitetləri məzunlarının Azərbaycanın ictimai həyatında rolu” adlı konfransının keçirilməsinə kömək göstərilmişdir.

20-30 may 2016-cı il tarixlərdə Azərbaycan Türkiyə Gənclərinin Dostluq Cəmiyyəti ilə birgə “İdeya Qazandı” işgüzar realiti şou televiziya layihəsinin növbəti verilişləri hazırlanmışdır. 2016-cı ilin fevral-may aylarında “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi ilə birgə “Multikulturalizm - dövlətin etnosların qarşıdurmasına yol verilməməsi məqsədi ilə apardığı balanslaşdırılmış sosial-iqtisadi siyasətdir” mövzusunda “Respublika Debat Gənclər Forumu” keçirilmişdir. Forum ümumilikdə 1000 nəfərdən artıq gənci əhatə etmişdir.

2017-ci ildə Azərbaycanda keçiriləcək 41-ci Dünya Skaut Konfransı və 13 –cü Dünya Skaut Gənclər Forumunun təşkili məqsədilə 02-06 iyun 2016-cı il tarixlərdə Qəbələ rayonunda ilkin hazırlıq iclası keçirilmişdir. Hazırlıq iclasında Dünya Skaut Hərəkatı Təşkilatının sədri Joao Armando ilə yanaşı Yaponiya, Argentina, Böyük Britaniya, Əlcəzair, Fransa, Kamerun, Koreya, Misir, Portuqaliya, Serbiya və Polşadan 11 skaut iştirak etmişdir.

17 iyun 2016-cı il tarixdə Dünya Azərbaycanlıları Gənclərinin Beynəlxalq Həmrəyliyi İctimai Birliyi ilə birgə “Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir və dönməzdir” adlı konfrans keçirilmişdir. Konfransda 200 nəfər gənc iştirak etmişdir.

20-27 iyun 2016-cı il tarixlərdə “Böyük İpək Yolu” Beynəlxalq Gənclər İttifaqı tərəfindən “Multikulturalizm və sülh quruculuğu üzrə gənclər düşərgəsi”nin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

Gənclər təşkilatlarının layihələrinin maliyyələşdirilməsi məqsədi ilə 10-20 iyun 2016-cı il tarixlərdə növbəti müsabiqə elan olunmuşdur.

Gənclər və İdman Nazirliyinin dəstəyi və Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə “Yerli” Kənd Gənclərinin İnkişafı Proqramı çərçivəsində 2016-cı il iyul-dekabr ayları ərzində “Öz biznesinə başla!”, "Layihələrin yazılması və idarə olunması", "Sosial şəbəkələrdən səmərəli istifadə qaydaları", "Karyera planlaşdırılması və ixtisas seçimi", "Erkən nikahlar valideyn məsuliyyətsizliyinin və ictimai qınaqsızlığın nəticəsidir", “Sosial mediadan səmərəli istifadə qaydaları”, “Biznes və sahibkarlıq”, “Regionlarda sosial problemlərin həllində könüllülük işinin gücləndirilməsi” mövzuları üzrə təlimlər, 25-27 noyabr 2016-cı il tarixlərdə Azərbaycan Dövlət İqtisad Universiteti, Avropa Gənclər Forumu, “Tələbələrin İqtisadiyyat və Menecmentlik üzrə Assosiasiyası” İctimai Birliyi və BMT-nin Əhali Fondu ilə əməkdaşlıq çərçivəsində Gəncə və Bakı şəhərlərində “QHT İdarəetmə Akademiyası: Beynəlxalq təcrübə” adlı layihə həyata keçirilmişdir.

“Gəncə şəhərinin “2016-cı il Avropa gənclər paytaxtı” seçilməsi ilə əlaqədar tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 fevral 2016-cı il tarixli Sərəncamına müvafiq olaraq Gəncə şəhərində aşağıdakı tədbirlər keçirilmişdir:

- 04-09 iyul 2016-cı il tarixlərdə Azərbaycan Demokratik-Tələbə Gənclər Təşkilatı tərəfindən “Gənclər siyasətində fəal iştirakçılıq” mövzusunda beynəlxalq gənclər forumu keçirilmişdir. Forumda Azərbaycan, Türkiyə, Ukrayna, Gürcüstan, Serbiya, Moldova, Polşa, Çex Respublikası, Slovakiya, İtaliya, Rumıniya, Belçika və Rusiyadan olan gənclər iştirak etmişdir.
- Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi və Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə 11-15 iyul 2016-cı il tarixlərdə “Azərbaycan Könüllülük Xidməti: yay məktəbi” təşkil edilmişdir.
- 18-24 iyul 2016-cı il tarixlərdə Azərbaycan Skautlar Assosiasiyası tərəfindən keçirilmiş “Wonderland-2016 Azərbaycan” beynəlxalq skaut düşərgəsinin təşkilində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Düşərgədə Azərbaycan, Türkiyə, Gürcüstan, Polşa, Misir, Seyşel, Bəhreyin, Sloveniya, Belarusdan olan gənclər iştirak etmişdir.
- 26 sentyabr - 1 oktyabr 2016-cı il tarixlərdə Türk Şurası Gənclər Festivalı keçirilmişdir. Festivalda Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Qətər, Türk Şurasından olan gənclər iştirak etmişdir.

- “Gəncə Avropa Gənclər Paytaxtı 2016” İctimai Birliyi tərəfindən 29 sentyabr - 02 oktyabr 2016-cı il tarixlərdə Avropa Gənclər Festivalı keçirilmişdir. Festivalda 230 nəfər iştirak etmişdir.

Gənclər və İdman Nazirliyi və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi ilə birgə 2016-cı ilin sentyabr-dekabr aylarında “Sahibkarlığın inkişafında proteksionizm siyasətinin rolu” mövzusunda “Respublika Debat Gənclər Forumu: payız sezonu” adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində keçirilmiş debat təlimlərinin, ekspertlə görüşlərin və debat raundlarının nəticəsi olaraq Bakı, Gəncə, Şəki, Lənkəran, Mingəçevir və Sumqayıt şəhərlərində regional debat forumları təşkil edilmişdir. Forumun final mərhələsi isə 8-9 dekabr 2016-cı il tarixlərdə Gəncə şəhərində keçirilmişdir. Ümumilikdə, forumda 1000-dən çox gənc iştirak etmişdir.

09-21 iyul 2016-cı il tarixlərdə Braziliya, Meksika, Argentina, Hindistan, Litva, Monteneqro, Rumıniya, Serbiya, Fransa, Ukrayna və Çex Respublikasının gəncləri arasında “Mən Azərbaycan haqqında nə bilirəm?” mövzusunda keçirilmiş esse yazı müsabiqəsinin qaliblərinin Azərbaycana səfərləri təşkil olunmuşdur. Səfərdə 56 nəfər gənc iştirak etmişdir.

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyi tərəfindən icra olunan “Youth İnc.” Gənclərin Sahibkarlıq Proqramı çərçivəsində 15 iyul 2016-cı il tarixdə Gəncə şəhərində “Youth Inc. Gənclərin Sahibkarlıq Forumu: Gəncə”, “Youth İnc. Business Academy” Akselerasiya Proqramı adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində iyul-avqust aylarında müraciət etmiş 203 gənc arasından 25 nəfəri seçilərək 6 həftəlik intensiv təlim-tədris kurslarına cəlb edilmişlər. 01 dekabr 2016-cı il tarixdə Bakı şəhərində akselerasiya proqramının bağlanış və mükafatlandırma mərasimi keçirilmişdir.

18-22 avqust 2016-cı il tarixlərdə “Avropa Gənclər Parlamenti-Azərbaycan” İctimai Birliyinin Gəncə ikinci beynəlxalq gənclər forumunun keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Forumda 120 nəfər iştirak etmişdir.

26 sentyabr 2016-cı il tarixdə keçirilmiş Referenduma çıxarılmış məsələlər barədə gənclərin məlumatlılıq səviyyəsinin artırılması məqsədi ilə Gənclər və İdman Nazirliyinin dəstəyi və Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə 15-25 sentyabr 2016-cı il tarixlərdə sosial şəbəkələrdə “ReTweet” kampaniyası keçirilmişdir.

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə “İrəli” İctimai Birliyi tərəfindən 29 sentyabr-09 oktyabr 2016-cı il tarixlərdə Samux rayonunda “I Azərbaycan Könüllülər Festivalı” adlı layihə, 01-20 noyabr tarixlərdə Gəncə, Lənkəran, Mingəçevir, Şəki və Bakı şəhərləri, Biləsuvar, İsmayıllı, Quba, Şəmkir və Tərtər rayonlarında “Azərbaycanın İntellektual Birincisi” adlı layihə, 12-22 dekabr 2016-cı il tarixlərdə “Gənclər teatrı” adlı layihə həyata keçirilmişdir.

“Böyük İpək Yolu” Beynəlxalq Gənclər İttifaqının “Konfliktlərin ictimai həyata və gənclərin fəaliyyətinə təsiri” (15-31 mart 2016-cı il), “Mədəniyyətlərarası və dinlərarası dialoq üzrə qısametrajlı film festivalı” (13-18 oktyabr 2016-cı il) və “Üzvlər İclası” (16-20 dekabr 2016-cı il) adlı layihələrinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

Xalq şairi Rəsul Rzanın uşaqlar üçün yazdığı silsilə şeirlərin kitab formasında nəşr olunması üçün “Şəms” Gənc Ailələrə Dəstək Mərkəzi İctimai Birliyinə köməklik göstərilmişdir.

Gənclər və İdman Nazirliyinin və BMT-nin Əhali Fondunun dəstəyi, Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə noyabr ayından “Gənclər daha yaxşı gələcək uğrunda” kampaniyasına start verilib. Kampaniyanın əsas məqsədi BMT-nin qəbul etdiyi 17 Dayanaqlı İnkişaf Məqsədləri barədə gənclər arasında təbliğat-təşviqat işlərinin aparılması, gənclərin təlimləndirilməsi vasitəsi ilə maarifləndirilməsi, onların sosial proqramlara və fəal ictimai fəaliyyətlərə cəlb olunması və nəticə etibarı ilə Dayanıqlı İnkişaf Məqsədinə çatmasında gənclərin rolunun artırılmasına nail olmaqdır. Kampaniya çərçivəsində 2016-cı il noyabr-dekabr ayları ərzində Lənkəran, Quba, Şəki və Gəncə şəhərlərində "Gender bərabərliyi və sağlam həyat tərzində gənclərin rolu" mövzusunda təlimlər, Gənclər Təşkilatları Milli

Şurasının üzvü olan 114 gənclər təşkilatı və digər gənclər təşkilatları arasında sorğular keçirilmiş və “Gender bərabərliyi və keyfiyyətli təhsil” mövzusunda sosial videoçarxlar hazırlanmışdır.

2017-ci ildə Bakıda və Qəbələdə keçiriləcək 13-cü Dünya Skaut Gənclər Forumuna və 41-ci Dünya Skaut Konfransına hazırlıq məqsədi ilə 02-04 dekabr 2016-cı il tarixlərdə Bakı şəhərində beynəlxalq işçi qrupunun növbəti iclası keçirilmişdir. İclasda dünya skaut hərəkatı təşkilatının sədri Joao Armando Gonçalves iştirak etmişdir.

***Tələbə və tələbə-gənclər təşkilatları ilə iş***

05-06 fevral 2016-cı il tarixlərdə Şəmkir rayonunda Qazax-Gəncə iqtisadi rayonun, 12 aprel 2016-cı il tarixdə Bərdə rayonunda Yuxarı Qarabağ, Kəlbəcər-Laçın iqtisadi rayonlarına daxil olan rayon və şəhərlərin, habelə Bərdə və ətraf rayonların, 19 may 2016-cı il tarixdə Sabirabad rayonunda Aran iqtisadi rayonuna daxil olan rayon və şəhərlərin, 17 iyun 2016-cı il tarixdə isə Quba rayonunda Quba-Xaçmaz iqtisadi rayonlarına daxil olan rayon və şəhərlərin fəal gənclərinin iştirakı ilə “Gənclik və dövlət müstəqilliyi: gələcəyə baxış” mövzusunda regional Forumlar keçirilmişdir.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən II Dünya müharibəsi iştirakçılarının həyatından bəhs edən “Yaşayan tarix-V” adlı layihə fevral ayı, “Danışan kitablar 2” adlı layihə isə aprel ayı ərzində Bakı şəhərində həyata keçirilmişdir.

11-13 fevral 2016-cı il tarixlərdə Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzi ilə birgə məktəblilər arasında “Sabahın alimləri” V Respublika müsabiqəsi keçirilmişdir.

Gənclər və İdman Nazirliyi Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə 24 fevral 2016-cı il tarixdə 26 fevral-Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə Respublika Stend Atıcılığı İdman Kompleksində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ənənəvi olaraq “Mahir nişançı” güllə atıcılığı üzrə IX Respublika turniri keçirilmişdir.

Hesabat dövründə “Virtual Qarabağ” elektron kitabxanası və “Qarabağın geyimləri” elektron albomunun hazırlanmasına başlanmışdır.

09 mart 2016-cı il tarixdə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının növbəti III hesabat - seçki konfransı keçirilmişdir.

13-16 aprel 2016-cı il tarixlərdə "Tələbə baharı" IX Ümumrespublika tələbə yaradıcılıq müsabiqəsinin seçim turları, 29 aprel 2016-cı il tarixdə yekun konserti keçirilmişdir.

29 aprel 2016-cı il tarixdə “Gələcək nəsillərlə üz-üzə” 6-cı Ümumrespublika inşa müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Gəncə şəhərinin “2016-cı ilin Avropa gənclər paytaxtı” seçilməsi ilə əlaqədar 21 may 2016-cı il tarixdə Gəncə şəhərində "Tarixin canlı səhifələri adlı IV Gənclər Festivalı keçirilmişdir.

24 iyun 2016-cı il tarixdə “Youthvision” Beynəlxalq mahnı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə 19 ölkədən 60 nəfər iştirakçı qatılmışdır.

Nazirlik AMEA nəzdində Arxeologiya və Etnoqrafiya İnstitutu ilə birgə 09-20 avqust 2016-cı il tarixlərində Qəbələ rayonunda gənclərin iştirakı ilə növbəti arxeoloji düşərgə təşkil edilmişdir.

19-29 sentyabr 2016-cı il tarixlərdə Lənkəran və Şəki şəhərlərində “Gənclik və dövlət müstəqilliyi: gələcəyə baxış” gənclərin regional forumları keçirilmişdir.

22-25 sentyabr 2016-cı il tarixlərdə Rusiya Federasiyası Tatarıstan Respublikasının Kazan şəhərində “Yeni nəsil: sərhədsiz məsuliyyət” IV Rusiya-Azərbaycan Gəncləri Forumu keçirilmişdir.

19-24 sentyabr 2016-cı il tarixlərdə Yunanıstanın Pieria bölgəsində “Dionda Olimpiya” qədim dram, musiqi və atletika üzrə beynəlxalq gənclər toplantısı keçirilmişdir. Toplantıda 7 ölkənin- Yunanıstan, Rusiya, Serbiya, Polşa,Türkiyə, İran və Azərbaycanın gənclərdən ibarət teatr truppaları iştirak etmişdir.

27 oktyabr 2016-cı il tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında gənclər arasında mədəni irsin təbliğ edilməsi məqsədilə “Sarı gəlin” layihəsi həyata keçirilmişdir.

17-28 oktyabr 2016-cı il tarixlərdə Bakı şəhərində yerləşən 10 ali və orta ixtisas təhsil müəssisələrində “Azərbaycan Tələbə Kartı” ilə bağlı təbliğat kompaniyası keçirilmişdir.

29 oktyabr 2016-cı il tarixdə Mingəçevir şəhərində, 5 noyabr 2016-cı il tarixdə Gəncə şəhərində ali və orta ixtisas təhsil müəssisələrinin tələbə-gənclər təşkilatlarının fəal üzvləri ilə görüş keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı”nın icrasını təmin etmək məqsədi ilə, 10 noyabr 2016-cı il tarixində Bakı şəhərində “Gənclik və dövlət müstəqilliyi: gələcəyə baxış” mövzusunda Respublika gənclərinin konfransı keçirilmişdir.

30 noyabr 2016-cı il tarixdə AMEA-nın Mərkəzi Elmi kitabxanasının konfrans zalında “Virtual Qarabağ” İnformasiya – Kommunikasiya Texnologiyaları Mərkəzinin istehsal etdiyi yeni məhsulların – “Kəlbəcər-virtual səyahət” 3D qrafik təsvirli filminin, “Qarabağın geyimləri” elektron albomunun və “Virtual Qarabağ elektron kitabxanası”nın təqdimat mərasimi keçirilmişdir.

05-07 dekabr 2016-cı il tarixlərdə Rusiya Federasiyasının Moskva şəhərində Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) VII Forumu və ona həsr olunmuş mədəni-kütləvi tədbir keçirilmişdir.

14 dekabr 2016-cı il tarixdə “Azərbaycan Tələbə Kartı”nın təqdimat mərasimi keçirilmişdir.

21 dekabr 2016-cı il tarixdə “İrəvan-Gizlədilmiş Həqiqətlər” filminin təqdimatı keçirilmişdir.

## İ D M A N

2016-cı ildə gənc nəslin sağlam ruhda böyüyüb tərbiyə olunması, ölkədə bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, yüksək dərəcəli idmançıların hazırlanması, olimpiya hərəkatının genişləndirilməsi, Olimpiya Oyunlarına yüksək səviyyədə hazırlığın təmin edilməsi, idmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 2016-cı il üçün təsdiq etdiyi tədbirlər planına əsasən hesabat dövründə respublikada fəaliyyət göstərən federasiyalar ilə birlikdə ölkəmizdə 203 respublika yarışları təşkil edilmiş, 52 beynəlxalq yarış keçirilmiş, 198 beynəlxalq yarışlarda ölkə yığma komandamızın iştirakı təmin olunmuşdur. İdman növləri üzrə yığma komandalar 12 gündən az olmayaraq 100-dən çox təlim-məşq toplanışlarında iştirak etmişlər.

2016-cı il ərzində olimpiya və qeyri-olimpiya idman növləri üzrə dünya, Avropa çempionat və birinciliklərində, kubok yarışlarında 297 qızıl, 250 gümüş və 290 bürünc olmaqla ümumilikdə 837 medal qazanılmışdır.

05 mart-“Bədən tərbiyəsi və idman günü” ilə əlaqədar Bakıda və respublikamızın bütün şəhər və rayonlarında silsilə tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Milli Paralimpiya Komitəsinin 20 illiyi münasibətilə Azərbaycanda paralimpiya idmanının inkişafında xidmətlərinə görə 1 nəfər “Dostluq” ordeni, 1 nəfər Azərbaycan Respublikası Prezidentinin Fərdi Təqaüdü, 1 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə”, 12 nəfər “Tərəqqi” medalı və 20 nəfər isə “Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu” ilə təltif edilmişdir.

Bundan başqa XXXI Rio Yay Olimpiya Oyunlarında yüksək nailiyyətlərə görə 2 nəfər “Şöhrət” ordeni ilə, 1 nəfər 1-ci dərəcəli “Vətənə xidmətə görə”, 2 nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə”, 5 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə, 18 nəfər “Tərəqqi” medalı ilə, 16 nəfər “Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu” ilə, XV Paralimpiya Oyunlarının nəticələrinə görə isə 2 nəfər “Şöhrət” ordeni ilə, 1 nəfər 2-ci dərəcəli

“Vətənə xidmətə görə”, 8 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri ilə, 9 nəfər “Tərəqqi” medalı ilə, 1 nəfər isə “Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu” ilə təltif edilmişdir.

2016-cı il ərzində idman növləri üzrə isə məşqçi-müəllimlərə ali, I və II ixtisas kateqoriyasının verilməsi ilə əlaqədar təqdim olunmuş sənədlərə Azərbaycan Respublikasının Vahid İdman Təsnifatına uyğun olaraq baxılmışdır. İl ərzində müxtəlif idman növləri üzrə 90 məşqçi-müəllimə ixtisas kateqoriyası verilmişdir. O cümlədən 8 nəfər ali, 80 nəfər birinci, 4 nəfər ikinci kateqoriya almışdır . Bundan başqa 35 nəfərə “Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi”, 49 nəfərə “Azərbaycan Respublikasının Əməkdar məşqçisi”, 23 nəfərə “Azərbaycan Respublikasının əməkdar idman ustası”, 10 nəfərə “Respublika dərəcəli hakim” fəxri adları verilmişdir. 156 nəfər İdman ustası normasını yerinə yetirmişdir. 12 nəfərə isə dublikat vəsiqə verilmişdir.

Hesabat dövründə Azərbaycan yığma komandaların həkimləri elmi və metodiki yeniliklərlə təmin olunmuş, onlara yeni tibbi və bioloji üsullar haqqında məlumatlar verilmişdir. İdmançıların, həkimlərin, məşqçilərin və ümumiyyətlə gənclərin maarifləndirilməsi məqsədi ilə onlar arasında dopinqlə bağlı sosial sorğular keçirilmiş və nəticələr təhlil edilmişdir. Dünya Antidopinq Agentliyi tərəfindən qadağan olunmuş üsul, vasitə və dərman preparatlarının 2016-cı il üçün yeniləşmiş siyahıları idman federasiyalarına paylanılmışdır. Azərbaycan idmançıları arasında dopinqə qarşı mübarizənin gücləndirilməsi ilə əlaqədar Azərbaycan yığma komandalarının üzvlərinin yarışdankənar dopinq yoxlanışı keçirilmişdir. Respublika və beynəlxalq yarışlara hazırlıq məqsədi ilə Azərbaycan yığma komandalarının üzvləri bərpaedici vasitələrlə təmin olunmuşdur.

Hesabat dövründə Bakı şəhəri Milli Gimnastika Arenasında idman gimnastikası və batut gimnastikası üzrə dünya kuboku yarışları, Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş Bakı şəhərində cüdo üzrə Rio-2016 Yay Olimpiya Oyunlarına lisenziya xalları verən ənənəvi “Grand-Slam” beynəlxalq turniri və Naxçıvan şəhərində “Naxçıvan Open-2016” beynəlxalq şahmat festivalı, Qəbələ şəhərində gənclər arasında güllə və stend atıcılığı üzrə dünya kuboku, Bakı şəhərində “Sərhədçi” İOK-də boks üzrə lisenziya xarakterli dünya təsnifat turniri, Beynəlxalq Kanoe Federasiyasının Azərbaycan Milli Avarçəkmə federasiyası ilə birgə təşkil etdiyi 36-cı növbəti Beynəlxalq Konqresi və digər tədbirlər yüksək səviyyədə təşkil edilərək keçirilmişdir.

Hesabat dövrünün ən əlamətdar hadisələri ilk dəfə Bakıda keçirilmiş Formula 1 Avropa Qran Prisi, XXXI Rio Yay Olimpiya Oyunları və 42-ci Ümumdünya Şahmat Olimpiadası olmuşdur.

## İlin əsas idman hadisələrii

### Formula-1 üzrə Avropa Qran Prisi

17-19 iyun 2016-cı il tarixlərdə ölkəmiz daha bir mötəbər idman yarışına ev sahibliyi etmişdir. Bakıda ilk dəfə Formula-1 üzrə dünya çempionatının səkkizinci mərhələsi olan Formula-1 Avropa Qran Prisi təşkil olunmuşdur.

Yarışmada 11 komanda hər biri 2 pilotla təmsil olunmuşdur. 17 iyun praktiki yürüş, 18 iyun təsnifat mərhələsi, 19 iyun isə əsas yarış keçirilmişdir.

Bakıda keçirilmiş Formula-1 Avropa Qran Prisi “Mercedes”in almaniyalı pilotu Niko Rosberqin qələbəsi ilə başa çatmışdır. O, 1 dəqiqə 48,942 saniyəlik nəticə ilə birinci olmuşdur. İkinci yeri “Ferrari”nin pilotu Sebastian Fettel, üçüncü yeri isə “Force İndia”nın sürücüsü Serxio Peres tutmuşdur.

Qran Prinin hazırlığını daim nəzarətdə saxlayan ölkə başçısı cənab İlham Əliyev yarışları ailəsi ilə birgə izləmiş və mükafatlandırma mərasimində iştirak etmişdir. Yarışın qalibi Niko Rosberqə kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, mühəndislər kubokunu isə “Mercedes” komandasının nümayəndəsinə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təqdim etmişlər.

Hazırlıq dövründə müvafiq prosedurların sadələşdirilməsi və bununla bağlı müvafiq sərəncamların imzalanması minlərlə Formula-1 azarkeşlərinin, habelə turistlərin ölkəmizə rahat gələ bilməsinə şərait yaratmışdır. Dünyanın müxtəlif ölkələrindən minlərlə Formula-1 azarkeşinin ölkəmizə gəlməsi, həmçinin yarışı işıqlandırmaq üçün 160-dək əcnəbi jurnalistin Bakıya ezam olunması, ümumilikdə Qran Prini televiziya vasitəsilə 187 ölkədə 500 milyon tamaşaçının izləməsi Azərbaycanın təbliğində mühüm rol oynamışdır.

## XXXI Yay Olimpiya Oyunları

05-22 avqust 2016-cı il tarixlərdə Braziliyanın Rio de Janeyro şəhərində XXXI Yay Olimpiya Oyunları keçirilmişdir.

Ölkəmiz bu oyunlarda 18 idman növündə 56 idmançı ilə təmsil olunmuşdur. Bunlardan: boks üzrə 11, atletika üzrə 4, akademik avarçəkmə 2, kanoe slalom 1, kanoe sprint 2, sərbəst güləş üzrə 9, yunan-roma güləşi üzrə 5, bədii gimnastika üzrə 1, idman gimnastikası üzrə 2, taekvondo üzrə 4, velosiped şosse 2, velosiped trek 1, üzgüçülük üzrə 2, qılıncoynatma üzrə 1, triatlon üzrə 1, kamandan oxatma üzrə 1, cüdo üzrə 6 və güllə atıcılığı üzrə 1.

Azərbaycan idmançıları Olimpiya Oyunlarında ilk dəfə olaraq 4 idman növündə - kanoe slalom, kamandan oxatma, triatlon, velosiped idmanının keyrin və sprint növlərində çıxış etmişlər.

Rio Olimpiya Oyunlarında idmançılarımız 1 qızıl, 7 gümüş və 10 bürünc olmaqla ümumilikdə 18 medal qazanmaqla yeni rekorda imza atmışlar- hər 3.1 idmançıya 1 medal. Müqayisə üçün qeyd etmək olar ki, XXXI Yay Olimpiya Oyunlarında 567 idmançı ilə təmsil olunan ABŞ 121 medal qazanmışdır ki, bu da yalnız hər 4.7 idmançıya 1 medal deməkdir.

Medalların sayına görə Azərbaycan 15-ci, Avropa ölkələri arasında 7-ci , keçmiş SSRİ respublikaları arasında 2-ci, müsəlman və türkdilli dövlətlər arasında 1-ci olmuşdur (Müqayisə üçün bildiririk ki, 2012-ci il London Yay Olimpiya Oyunlarında Azərbaycan 16 idman növündə 53 idmançı ilə təmsil olunmuş, nəticədə 2 qızıl, 2 gümüş və 6 bürünc olmaqla ümumilikdə 10 medal qazanmışdır. London Olimpiadasında qazanılan medalların sayına görə Azərbaycan 25-ci, Avropa ölkələri arasında 12-ci, keçmiş SSRİ respublikaları arasında 5-ci, müsəlman ölkələri arasında 3-cü və türkdilli dövlətlər arasında 2-ci olmuşdu).

Bundan başqa, Rio Olimpiadasında iştirak edən 56 idmançımızdan 30-u (London Olimpiadasında 20 idmançı) yüksək nəticə göstərərək ilk 8-liyə daxil ola bilmişdir.

07-18 sentyabr 2016-cı il tarixlərində Brazilyanın paytaxtı Rio-de-Janeyroda keçirilmiş Yay Paralimpiya Oyunlarında Milli Paralimpiya komandamız 6 idman növündə, 22 idmançı və 2 liderlə təmsil olunmuşdur. Onlardan 11 nəfəri ilk dəfə olaraq Paralimpiya Oyunlarında iştirak etmişlər. Komandamız uğurlu nəticə göstərərək 1 qızıl, 8 gümüş və 2 bürünc olmaqla ümumilikdə 11 medal qazanmışdır. Paralimpiya yığmamız medalların ümümi sayına görə iştirakçı ölkələr arasında 33-cü, Avropa ölkələri arasında 16-cı, müsəlman ölkələri arasında 6-cı, MDB ölkələri arasında isə 3-cü yerə çıxmışdır.

## 42-ci Ümumdünya Şahmat Olimpiadası

01-14 sentyabr 2016-cı il tarixlərdə Bakı şəhərində 42-ci Ümumdünya Şahmat Olimpiadası keçirilmişdir. Olimpiadada 175 ölkədən 181 kişi və 142 qadın komandaların 1600-dən çox üzvü, bundan əlavə yüzlərlə komanda kapitanları və məşqçiləri, digər rəsmi nümayəndələr, 193 hakim və FİDE rəsmiləri iştirak etmişdir. Bu iştirakçı ölkələrin sayına görə Şahmat Olimpiadası tarixində rekord göstəricidir. Bakının ev sahibliyi etdiyi 42-ci Şahmat Olimpiadası eyni zamanda indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarışlardan biri kimi də idman tarixinə düşəcəkdir.

Bundan başqa 04-13 sentyabr 2016-cı il tarixlərdə “Fairmont” oteldə FİDE-nin 87-ci Konqresi və Baş Assambleyanın iclasları keçirilmişdir. Konqresdə FİDE-nin bütün üzv dövlətlərini təmsil edən 359 nümayəndə və FİDE komissiyalarının 24 sədri iştirak etmişdir.

**Təqvim planına əsasən keçirilmiş yerli və beynəlxalq yarışlarda iştirak**

13-18 yanvar 2016-cı il tarixlərdə taekvondo idman növü üzrə yığma komanda Türkiyənin İstanbul şəhərinə ezam olunmuşdur. İdmançılarımız bu yarışda 3 qızıl medal qazanmışdır.

16-17 yanvar 2016-cı il tarixlərdə cüdo idman növü üzrə Tunisin Tunis şəhərində böyüklərdən ibarət yığma komanda Afrika açıq kubokunda iştirak etmişdir. Bu yarışda 1qızıl medal qazanılmışdır.

22-24 yanvar 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda "Grand-Prix" beynəlxalq turnirində iştirak etmək üçün Kubanın Havana şəhərinə ezam olunmuşlar. Yarışda idmançılarımız 1 qızıl, 2 bürünc medal əldə etmişdir.

30-31 yanvar 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Bolqarıstanın Sofiya şəhərində keçirilmiş Avropa açıq kubokunda iştirak etmişdir.Yarışda idmançılarımız 1 qızıl, 2 bürünc medal əldə etmişdir.

30-31 yanvar 2016-cı il tarixlərdə yunan-roma güləşi üzrə Türkiyənin İstanbul şəhərində keçirilmiş "Vehbi Emrehin" xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə yığma komandanının üzvləri 2 bürünc medala sahib çıxmışdır.

02-07 fevral 2016-cı il tarixlərdə boks üzrə Macarıstanın Debretsen şəhərində keçirilmiş beynəlxalq turnirində 1 qızıl, 2 gümüş və 1 bürünc medal əldə edilmişdir.

06 - 07 fevral 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Fransanın Paris şəhərində "Grand Slam" beynəlxalq turnirində iştirak etmişdir. Yarışda idmançılarımız 1 gümüş medal qazanmışdır.

12-20 fevral 2016-cı il tarixlərdə taekvondo idman növü üzrə gənclər və böyüklərdən ibarət yığma komanda Türkiyənin Antalya şəhərində keçirilmiş "Turkish Open" beynəlxalq turnirində və klublararası Avropa çempionatında iştirak etmişdir. Turnirdə idmançılarımız 1 qızıl, 3 bürünc medal, Avropa çempionatında isə 3 qızıl, 7 gümüş və 7 bürünc medal qazanmışdır.

13-14 fevral 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Avropa açıq kubokunda iştirak etmək üçün Avstriyanın Obervart şəhərinə ezam olunmuşlar. İdmançılarımız 1 qızıl, 1 bürünc medala layiq görülmüşdür.

14-16 fevral 2016-cı il tarixlərdə taekvondo üzrə gənclər arasında Türkiyənin Antalya şəhərində keçirilmiş "Turkish Open" beynəlxalq turnirdə yığma komandanın üzvləri 2 bürünc medal qazanmışdır.

18-20 fevral 2016-cı il tarixlərdə taekvondo üzrə böyüklər və gənclərdən ibarət yığma komanda Antalya şəhərində klublararası Avropa çempionatı və birinciliyində iştirak etmişdir. İdmançılarımız 3 qızıl, 5 gümüş və 8 bürünc medala sahib çıxmışdır.

05-06 mart 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Panamerika açıq kubokunda iştirak etmək üçün Perunun Lima şəhərinə ezam olunmuşlar. İdmançılarımız 1 qızıl, 3 bürünc medala sahib olmuşlar.

05-06 mart 2016-cı il tarixlərdə cüdo idman növü üzrə yeniyetmələrdən ibarət yığma komanda Türkiyənin Antalya şəhərində keçirilmiş Avropa kubokunda iştirak etmişdir. İdmançılarımız 4 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmışdır.

06-14 mart 2016-cı il tarixlərdə sərbəst güləş, yunan-roma və qadın güləşi üzrə yığma komandalar Riqada keçirilmiş Avropa çempionatında iştirak etmişdir.Sərbəst güləş üzrə 2 gümüş, 1 bürünc, qadın güləşi üzrə 2 qızıl, 1 bürünc medal qazanılmışdır.

08-11 mart 2016-cı il tarixlərdə yunan-roma güləşi üzrə Latviyanın Riqa şəhərində keçirilmiş Avropa çempionatında idmançılarımız 2 bürünc medal, sərbəst güləş üzrə isə 2 gümüş və 1 bürünc medal qazanmışdır.

12-13 mart 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Morokkonun Kasablanka şəhərində Afrika açıq kubokunda iştirak etmişdir. Nəticədə idmançılarımız 1 qızıl, 1 gümüş və 1 bürünc medala sahib çıxmışdır.

12-13 mart 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Argentinanın Buenos Aires şəhərində Panamerika açıq kubokunda iştirak etmişdir. 1 qızıl, 1 bürünc medal əldə edilmişdir.

15-23 mart 2016-cı iltarixlərdə Bakı şəhərində, “AF Mall” otelində keçirilmiş qadınlar arasında Azərbaycan çempionatında 22 şahmatçı mübarizə aparırdı. Aydan Höccətova və beynəlxalq qrossmeyster Gülnar Məmmədova əmsallar cədvəlinə görə müvafiq olaraq 2-ci və 3-cü yerlərin sahibləri olmuşlar.

18-21 mart 2016-cı iltarixlərdə həndbol üzrə qadınlardan ibarət yığma komanda Rusiyanın Maykop şəhərində beynəlxalq turnirdə iştirak edərək II yerdə qərarlaşıb.

01-03 aprel 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda “Grand-Prix” beynəlxalq turnirində iştirak etmək üçün Türkiyənin Samsun şəhərinə ezam olunmuşlar. Yarışda 1 gümüş, 1 bürünc medal əldə edilmişdir.

02-03 aprel 2016-cı il tarixlərdə cüdo idman növü üzrə gənclərdən ibarət yığma komanda Yunanıstanın Afina şəhərində Avropa kubokunda iştirak etmişdir. Nəticədə idmançılarımız 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışdır.

07-10 aprel 2016-cı il tarixlərdə taekvondo üzrə Almaniyanın Bonn şəhərində keçirilmiş “Dünya taekvondo federasiyasının prezident kuboku”nda idmançılarımız 1 qızıl, 3 gümüş və 1 bürünc medal qazanmışdır.

07-11 aprel 2016-cı tarixlərdə sambo idman növü üzrə Fransanın Tuluza şəhərində yeniyetmələr və gənclər arasında keçirilmiş Avropa birinciliyində yığma komandanın üzvləri 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışlar.

07-16 aprel 2016-cı il tarixlərdə ağır atletika üzrə Norveç Krallığının Forde şəhərində keçirilmiş lisenziya təsnifatlı Avropa çempionatında 1 qızıl, 1 bürünc medal əldə edilmişdir.

07-18 aprel 2016-cı il tarixlərdə boks üzrə Samsun şəhərində keçirilmiş Avropa lisenziya təsnifat turnirində idmançılarımız 3 qızıl, 1 gümüş və 1 bürünc medala sahib çıxmışdır.

16-17 aprel 2016-cı il tarixlərdə cüdo idman növü üzrə yeniyetmələrdən ibarət yığma komanda Çexiyanın Tepliça şəhərində keçirilmiş Avropa kubokunda iştirak etmiş, bu yarışda 4 qızıl, 2 gümüş və 4 bürünc medal əldə edilmişdir.

16-17 aprel 2016-cı il tarixlərdə cüdo idman növü üzrə gənclərdən ibarət yığma komanda Avropa kubokunda iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə ezam olunmuşlar. Yarışda 1 qızıl medal əldə edilmişdir.

16-17 aprel 2016-cı il tarixlərdə Yunanıstanın paytaxtı Afina şəhərində şahmat məsələlərinin əyani həlli üzrə Avropa çempionatı keçirilmişdir. Yarışda Araz Alməmmədov (Qəbələ), Misrətdin İsgəndərov (Sumqayıt) gümüş medalların sahibi olmuşlar. Şəxsi hesabda Rəşad Zeynallı 1-ci, Bəhruz Rzayev isə 2-ci yer tutmuşdur.

21-23 aprel 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Rusiyanın Kazan şəhərində keçirilmiş Avropa çempionatında iştirak etmiş, idmançılarımız 1 qızıl və 1 gümüş medal qazanmışdır.

06-08 may 2016-cı il tarixlərdə Bakı şəhərində cüdo idman növü üzrə Rio-2016 Yay Olimpiya Oyunlarına lisenziya xalları verən ənənəvi “Grand-Slam” beynəlxalq turniri keçirilmişdir. İdmançılarımız 2 bürünc medal əldə etmişdir.

09-19 may 2016-cı il tarixlərdə Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Naxçıvan Open-2016” beynəlxalq şahmat festivalı keçirilmişdir. Eltac Səfərli və Şəhriyar Məmmədyarov 9 oyundan 7 xal toplayaraq, 1-2-ci yerləri bölüşdürmüş və əmsallar cədvəlinə görə yarışın baş mükafatının sahibi Eltac Səfərlidir.

13-15 may 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda “Gran Pri” beynəlxalq turnirində iştirak etmək üçün Qazaxıstanın Almatıı şəhərinə ezam olunmuş, 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanmışdır.

03-05 iyun 2016-cı il tarixlərdə Nabranda “Xəzər” İstirahət Mərkəzində beynəlxalq uşaq gününə həsr olunmuş “Ata, ana və mən-turist ailəsiyik” ölkə çempionatı keçirilmişdir.

08-10 iyun 2016-cı il tarixlərdə Qəbələ rayonunda Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş iştirakçılarının Bədən tərbiyə və idman üzrə Şurasının növbəti iclası keçirilmişdir.

01-03 iyul 2016-cı il tarixlərdə Finlandiyanın Vantaa şəhərində yeniyetmələr arasında cüdo üzrə Avropa birinciliyi keçirilmişdir. Yarışda idmançılarımız 2 qızıl medala sahib çıxmışdır.

01-03 iyul 2016-cı il tarixlərdə cüdo üzrə böyüklər arasında Monqolustanın Ulanbator şəhərində “Grand-Prix” beynəlxalq turnirdə idmançılarımız 1 qızıl, 3 bürünc medal qazanmışdır.

05-17 iyul 2016-cı il tarixlərdə Rusiya Federasiyasının Saxa (Yakutiya) Respublikasında Beynəlxalq Olimpiya Komitəsinin, YUNESKO-nun, habelə Asiyanın Olimpiya Şurasının dəstəyi ilə “Asiya uşaqları” VI Beynəlxalq İdman Oyunları keçirilmişdir. Bunlardan 9-u qızıl (1 cüdo, 2 sərbəst güləş, 2 taekvondo, 4 atletika növlərində), 4-ü gümüş (1 boks, 3 cüdo növlərində), 3-ü bürünc (1 sərbəst güləş, 2 atletika növlərində) medal olmuşdur.

08–17 iyul 2016-cı il tarixlərdə Xorvatiyanın Zaqreb şəhərində stolüstü tennis üzrə gənclər arasında Avropa birinciliyinə yığma komandamız 3 komanda ilə (yeniyetmə oğlanlar, yeniyetmə qızlar və gənc qızlar) qatılmışdır. Bu yarışda yeniyetmə oğlan komandası III yer, gənc qızlar II yer, yeniyetmə qızlar III yer və qarışıq qoşa yarışında isə III yerə layiq görülərək ümumilikdə 1 gümüş və 3 bürünc medal qazanmışlar.

09-10 İyul 2016-cı il tarixlərdə taekvondo üzrə böyüklərdən ibarət yığma komanda Luksemburqda keçirilmiş «Luxembourg Open» beynəlxalq turnirdə 3 qızıl, 2 gümüş və 3 bürünc medal qazanılmışdır.

14-17 iyul 2016-cı il tarixlərdə İtaliyanın Roma şəhərində pankration idman növü üzrə Avropa çempionatı keçirilimişdir. Bu yarışda yığma komandanın üzvləri 2 gümüş, 1 bürünc medal qazanmışdır.

16-17 iyul 2016-cı il tarixlərdə Belarusun Minsk şəhərində qraplinq idman növü üzrə keçirilmiş dünya çempionatında yığma komandamız 2 qızıl, 3 bürünc medala layiq görülmüşdür.

16-17 iyul 2016-cı il tarixlərdə cüdo üzrə böyüklər arasında Rusiyanın Tümen şəhərində keçirilmiş “Grand Slam” beynəlxalq turnirdə yığma komandanın üzvləri 2 bürünc medal qazanmışdır.

19-24 iyul 2016- cı il tarixlərdə İsveç Krallığının Stokholm şəhərində keçirilmiş sərbəst, yunan-roma və qadın güləşi üzrə yığma komandalar yeniyetmələrin Avropa birinciliyində iştirak etmiş və yarışda 1 qızıl, 3 gümüş və 7 bürünc medal qazanmışlar.

21-26 iyul 2016-cı il tarixlərdə Rusiyanın Moskva şəhərində kunq-fu idman növü üzrə dünya çempionatında yığma komandamız 9 nəfər tərkibdə iştirak etmişdir. Nəticə göstərən idmançılar tao-lu sersiyasında 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazanmışdır.

23-24 iyul 2016-cı il tarixlərdə cüdo üzrə gənclərdən ibarət yığma komandanın üzvləri Çexiyanın Praqa şəhərində keçirilmiş Avropa kubokunda 1 qızıl, 2 gümüş və 5 bürünc medal qazanmışdır.

23-26 İyul 2016-cı il tarixlərdə taekvondo üzrə RF Çeçenistan Respublikasının Qroznı şəhərində 21 yaşlılar arasında Avropa çempionatı keçirilmişdir. Yığma komandanın üzvü Əliəskər Əliyev bürünc medala sahib çıxmışdır.

30-31 iyul 2016-cı il tarixlərdə cüdo idman növü üzrə gənclərdən ibarət yığma komandanın üzvləri Almaniyanın Berlin şəhərində keçirilmiş Avropa Kuboku turnirində iştirak etmişdir. Yarışda idmançılarımız 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmışdır.

18-22 avqust 2016-cı il tarixlərdə Ukraynanın Zaporojye şəhərində keçirilmiş triatlon üzrə gənclərdən ibarət milli-yığma komanda Ukrayna çempionatında iştirak etmişdir. Komandamızın üzvü Darina Moskalenko gənclər arasında mübarizə aparmasına baxmayaraq, böyüklərin yarışına qoşulmuş və qızıl medal qazanmışdır.

23 avqust-02 sentyabr 2016-cı il tarixlərdə Bolqarıstanın Kranevo şəhərində gözdən əlillər arasında dama üzrə dünya çempionatı keçirilmişdir. Yarışda iştirak edən Cabbarov Camal (tam görməyən) və Kamilli Famil (zəif görən) yarışda iştirak etmişdir. Komandamızın ilk dəfə iştirak etdiyi bu dünya çempionatında Cabbarov Camal tam görməyənlər arasında 3-cü yerin sahibi olmuşdur.

24 avqust–03 sentyabr 2016-cı il tarixlərdə Bolqarıstanın Kranevo şəhərində keçirilən “64” xanalı dama üzrə Dünya birinciliyində iştirak edən idmançılardan Əli Banu sürətli dama üzrə II yerə layiq görülmüşdür.

25-31 avqust 2016-cı il tarixlərdə həndbol üzrə qadınlardan ibarət Azərbaycan yığma komandası Ukraynanın Xerson şəhərində beynəlxalq turnirdə iştirak etmiş və 4 komanda arasında II yeri tutmuşdur.

26-29 avqust 2016-cı il tarixlərdə Rumıniyanın Tulkeya şəhərində triatlon üzrə gənclərdən ibarət milli-yığma komanda Avropa Kuboku yarışında iştirak etmişdir. Qızların mübarizəsində Darina Moskalenko bürünc medal qazanmışdır.

27 avqust -03 sentyabr 2016-cı il tarixlərdə İrlandiyanın Dublin şəhərində yeniyetmələr və gənclər arasında WAKO üzrə Dünya çempionatı keçirilmişdir. O cümlədən Azərbaycandan 15 idmançısı bu yarışda iştirak etmişdir. İdmançılarımız 2 qızıl 2 gümüş və 4 bürünc medal qazanmışdır.

30 avqust-04 sentyabr 2016-cı il tarixlərdə Fransanın Makon şəhərində keçirilmiş sərbəst, yunan-roma və qadın güləşi üzrə gənclərin dünya birinciliyində yığmamız 2 qızıl, 1 gümüş və 5 bürünc medal əldə etmişdir.

01-04 sentyabr 2016-cı il tarixlərdə triatlon üzrə gənclərdən ibarət milli-yığma komanda Sloveniyanın Bled şəhərində keçirilmiş Avropa Kuboku yarışında iştirak etmişdir. Qızların mübarizəsində Darina Moskalenko gümüş medal qazanmışdır.

02-08 sentyabr 2016-cı il tarixlərdə ağır atletika üzrə yığma komanda İordaniyanın Amman şəhərində keçirilmiş İslam Həmrəyliyi İdman Federasiyasının IV çempionatına ezam edilmiş və yarışda 2 qızıl, 5 bürünc medal qazanmışdır.

13-18 sentyabr 2016-cı il tarixlərdə Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilmiş sərbəst, yunan-roma və qadın güləşi üzrə yığma komandalar yeniyetmələrin dünya birinciliyində 1 qızıl, 3 gümüş və 5 bürünc medal əldə etmişdir.

13-20 sentyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə cüdo idman növü üzrə cüdo idman növü üzrə gənclərdən ibarət yığma komanda Avropa çempionatında iştirak etmək üçün İspaniyanın Malaqa şəhərinə ezam olunmuşdular. Yarışda idmançılarımız 2 qızıl, komanda yarışında isə gümüş medal qazanmışdır.

16-19 sentyabr 2016-cı il tarixlərdə qılıncoynatma idman növü üzrə (şpaqa) yığma komanda Türkiyənin Ankara şəhərində keçirilmiş kadetlər arasında Avropa kubokunda iştirak etmişdir. 10 ölkə komandası arasında idmançılarımız V yerə çıxmışdır.

16 sentyabr-12 oktyabr 2016-cı il tarixlərdə triatlon üzrə böyüklərdən ibarət milli-yığma komanda İspaniyanın Toledo şəhərində təlim-məşq toplanışı keçirmişdir. Təlim-məşq toplanışı zamanı keçirilən İspaniya çempionatında Rostislav Pevtsov və Kseniya Levkovskaya qızıl medal qazanmışlar.

17-18 sentyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Qazaxstanın Aktau şəhərində keçirilmiş J.Turar adına VIII beynəlxalq turnirində 2 qızıl və 1 bürünc medala sahib çıxmışdır.

17-26 sentyabr 2016-cı il tarixlərdə ölkəmizdə "Baku- Open 2016" Beynəlxalq Şahmat Festivalı keçirilmişdir. Yarışda 14 ölkənin 292 idmançısı A, B və C qruplarında iştirak etmişdir.

18-27 sentyabr 2016-cı il tarixlərdə 15 və 17 yaşa qədər yeniyetmə oğlanlar və qızlardan ibarət yığma komanda Polşanın Novi-Tomisi şəhərində keçirilən Avropa birinciliyində iştirak etmiş və 2 qızıl, 2 bürünc medalla vətənə qayıtmışdır.

19-25 sentyabr 2016-cı il tarixlərdə Makedoniyanın Skopye şəhərində sərbəst və yunan-roma güləşi üzrə yığma komandalar böyüklər arasında dünya çempionatında iştirak etmişdir. Bu yarışda yığma komandaların üzvləri 2 qızıl, 4 gümüş və 3 bürünc medal qazanmışdır.

22-25 sentyabr 2016-cı il tarixlərdə Rusiyanın Moskva şəhərində «Russian Open» beynəlxalq turnirdə taekvondo üzrə gənclərdən ibarət yığma komandanın üzvləri 1 qızıl, 2 gümüş və 2 bürnc medal qazanmışdır.

23-25 sentyabr 2016-cı il tarixlərdə kempo idman növü üzrə yığma komanda Litvanın Kaunas şəhərində keçirilmiş qrapplinq üzrə Avropa çempionatında iştirak etmiş və nəticədə idmançılarımız 2 gümüş medal qazanmışdır.

29 sentyabr-02 oktyabr 2016-cı il tarixlərdə pankration idman növü üzrə Gürcüstanın Tbilisi şəhərində keçirilmiş dünya çempionatında yığma komandamız 3 bürünc medal qazanmışdır.

03-10 oktyabr 2016-cı il tarixlərdə Bolqarıstanın Blaqoyevqrad şəhərində qol güləşi üzrə keçirilmiş dünya çempionatında 7 nəfərdən ibarət komandamız iştirak etmişdir. Bu yarışda idmançılarımız 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışdır.

03-11 oktyabr 2016-cı il tarixlərdə Azərbaycanın həndbol üzrə kişilərdən ibarət yığma komandası Rusiyanın Həştərxan şəhərində beynəlxalq turnirdə iştirak etmiş və 6 komanda iştirakı ilə II yeri tutmuşdur.

06-08 oktyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda Özbəkistanın Daşkənd şəhərində keçirilmiş "Grand-Prix" beynəlxalq turnirində 1 gümüş və 1 bürnc medal əldə etmişdir.

13-18 oktyabr 2016-cı il tarixlərdə Almaniyanın Branderburg şəhərində sumo idman üzrə Avropa birinciliyində yığma komandamız 3-cü yeri tutmuşdur.

17-22 oktyabr 2016-cı il tarixlərdə kyokuşinkaykan karate idman növü üzrə Türkiyənin İstanbul şəhərində keçirilmiş dünya kubokunda yığma komandanın üzvləri 8 qızıl medala sahib çıxmışdır.

23-30 oktyabr 2016-cı il tarixlərdə Sloveniyanın Maribor şəhərində Avropa çempionatı keçirilmişdir. Yarışda idmançılarımız 1 qızıl, 2 gümüş və 3 bürünc medala layiq görülmüşlər.

24-31 oktyabr 2016-cı il tarixlərdə İtaliyanın Marina di Karrara şəhərində kunq-fu idman növü üzrə keçirilmiş dünya çempionatda 64 ölkə iştirak etmişdir. Yığma komandanın idmançıları 8 medal qazanmışdır.

25-30 oktyabr 2016-cı il tarixlərdə İtaliyanın Karrara şəhərində WTKA üzrə Dünya çempionatında idmançılarımız 3 qızıl və 2 gümüş medal əldə etmişdir.

28-30 oktyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə böyüklərdən ibarət yığma komanda BƏƏ-nin Abu Dabi şəhərində "Grand Slam" beynəlxalq turnirdə iştirak etmişdir. Yığma komandanın üzvləri 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanmışdır.

29-30 oktyabr 2016-cı il tarixlərdə Serbiyanın Belqrad şəhərində taekvondo üzrə «Serbia Open» beynəlxalq turniri keçirilmişdir. Bu turnirdə gənclərdən ibarət yığma komandanın üzvləri 1 qızıl, 3 gümüş və 2 bürünc medal qazanmışlar.

03-07 noyabr 2016-cı il tarixlərdə İspaniyanın Alikante şəhərində keçirilmiş kişilər arasında bodibildinq üzrə dünya çempionatında yığma komandanın üzvü Kaveh Cəzani III yeri tutmuşdur.

03–07 noyabr 2016-cı il tarixlərdə şaolin üzrə yığma komanda Türkiyənin Antalya şəhərində keçirilmiş dünya çempionatında iştirak etmiş və idmançılarımız vətənə 2 qızıl, 2 gümüş və 1 bürünc medalla dönmüşlər.

04-08 noyabr 2016-cı il tarixlərdə kempo idman növü üzrə yığma komanda İtaliyanın Milan şəhərində keçirilmiş döyüş növləri üzrə dünya çempionatında iştirak edərək 2 qızıl medala sahib çıxmışdır.

07-10 noyabr 2016-cı il tarixlərdə Xaçmaz rayonunda "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final yarışları keçirilmişdir.

07-14 noyabr 2016-cı il tarixlərdə ABŞ-nın Luiziana ştatının Baton Rouge şəhərində poverliftinq idman növü üzrə yığma komanda dünya çempionatında iştirak etmişdir. Yığma komandamız yarışdan 10 qızıl və 1 gümüş medalla vətənə dönmüşdür.

10-11 noyabr 2016-cı il tarixlərdə Macarıstanın Budapeşt şəhərində keçirilmiş sərbəst və yunan-roma güləşi üzrə yığma komanda üzvləri böyüklər arasında qeyri-olimpiya çəki dərəcələrində dünya çempionatında 2 bürünc medal əldə etmişdir.

11-12 noyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə gənclərdən ibarət yığma komanda Avropa çempionatında iştirak etmək üçün İsrailin Tel-Əviv şəhərinə ezam olunmuşdur. Yarışda idmançılarımız 1 qızıl və 1 bürünc medal qazanmışlar.

12-13 noyabr 2016-cı il tarixlərdə Xorvatiyanın Zaqreb şəhərində taekvondo üzrə böyüklərdən ibarət yığma komanda «Croatia Open» beynəlxalq turnirində iştirak edərək 1 qızıl, 4 bürnc medal əldə etmişdir.

14-24 noyabr 2016-cı il tarixlərdə Bolqarıstanın Sofiya şəhərində boks üzrə qadınlar arasında Avropa çempionatı keçirilmişdir. Bu yarışda qadınlardan ibarət yığmamız 9 boksçu ilə təmsil olunaraq vətənə 1 qızıl, 2 bürünc, 1 gümüş medallarla dönmüşlər.

16-20 noyabr 2016-cı il tarixlərdə Kanadanın Burnaby şəhərində taekvondo üzrə gənclər arasında dünya birinciliyi keçirilmişdir. Bu yarışda idmançılarımız 1 gümüş və 2 bürünc medal qazanmışdır.

18-21 noyabr 2016-cı il tarixlərdə cüdo idman növü üzrə veteranlardan ibarət yığma komanda ABŞ-ın Florida ştatında dünya çempionatında iştirak etmişdir. İdmançılarımız 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışdır.

19-22 noyabr 2016-cı il tarixlərdə həndbol üzrə qadınlardan ibarət Azərbaycan yığma komandası IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqla əlaqədar "Turçin kuboku" beynəlxalq turnirində iştirak etmiş və 4 komandanın iştirakı ilə II yeri tutmuşdur.

24-29 noyabr 2016-cı il tarixlərdə Mingəçevir şəhərində "Ümumdünya futbol günü"nə həsr olunmuş ölkə turniri keçirilmişdir. Turnirdə respublikanın 11 şəhər və rayonunun komandaları iştirak etmişdir.

01-11 dekabr 2016-cı il tarixlərdə ağır atletika üzrə oğlan və qızlardan ibarət yığma komanda 22 nəfər tərkibdə 20-23 yaş arasında İsrailin Eilat şəhərində keçirilmiş Avropa birinciliyində iştirak etmişdir. Yarışda 1 idmançı III yerə layiq görülmüş və birdən qaldırma hərəkətində isə qızıl medal qazanmışdır.

14-18 dekabr 2016-cı il tarixlərdə qılıncoynatma idman növü üzrə yığma komandanın (sablya qadınlar) Meksikanın Kankun şəhərində keçirilmiş dünya kuboku Qran-Pri turnirində iştirak etmişdir. İdmançımız Səfquliyev Tural III yerə çıxmışdır.

Hazırda 2017-ci ildə Bakıda keçiriləcək İslam Ölkələrinin IV Həmrəylik Oyunlarına hazırlıq işləri davam etdirilir.